# Coğrafiya

1. **Suburbanizasiya və yalançı urbanizasiya üçün oxşar əlamətləri müəyyən edin.**
   1. Amerika qitəsində hər iki şəhərləşmə tipinə rast gəlinir.
   2. Hər iki şəhərləşmə tipində əhali əsasən böyük şəhərlərin ətrafında məskunlaşır.
   3. İEÖ-in əksəriyyəti üçün səciyyəvidir.
   4. İstanbul və Rio-de-Janeyro şəhərləri üçün səciyyəvidir.
   5. İqtisadi və sosial inkişaf sürəti şəhərləşmənin sürətindən geri qalır.
   6. Xətti, sahilboyu və radial modelləri mövcuddur.

A) 1, 3, 5 B) 1, 2, 6 C) 2, 3, 4 D) 1, 5, 6 E) 2, 5, 6

2. **Günəş şüalarının günorta vaxtı maksimum və minimum düşmə bucaqları arasındakı fərqin 47°-yə bərabər olduğu coğrafi enlikləri müəyyən edin.**

1. 22°c.e. 2. 72°şm.e. 3. 23,5°c.e. 4. 66,5°şm.e 5. 18°c.e 6. 58°c.e

A) 1, 4, 6 B) 2, 4, 5 C) 3, 4, 6 D) 3, 4, 5 E) 2, 3, 6

3. **Doğru fikirləri müəyyən edin.**
   1. Əsasən kiçik miqyaslı xəritələrdə təhrif daha çox olur.
   2. İstənilən tip proyeksiya ilə tərtib edilən xəritələrdə Günəşin zenitdə olduğu ərazilər təhrifsiz təsvir olunur.
   3. İstənilən tip proyeksiya ilə tərtib edilmiş xəritələrin 180°-lik meridianın keçdiyi hissələrində təhrif müşahidə edilə bilər.
   4. Yalnız XII və XXIV saat qurşaqları dörd yarımkürədə yerləşir.
   5. Topoqrafik xəritələrdə təhrif icmal topoqrafik xəritələrdən daha böyükdür.
   6. Konus proyeksiyadan istifadə edilərək tərtib olunan xəritələrdə təhrif olmur.

A) 1, 3, 6 B) 2, 4, 5 C) 1, 3, 5 D) 2, 3, 5 E) 1, 3, 4

4. **Dünya xəritəsində 30° ş.u ilə 70° q.u arasındakı ən qısa məsafə 50° paralel üzərində 30 sm olarsa, xəritənin bu hissəsi üçün xüsusi miqyası hesablayın. ( Nəzərə alın ki, 50° paraleldə 1°=71.7 km)**

A) 1:23900000 B) 1:9000000 C) 1:28460000 D) 1:33000000 E) 1:20000000

5. **Cədvələ əsasən doğru sıranı müəyyən edin.**

| S/S | Tektonik zonalar | Xüsusiyyətlər |
|---|---|---|
| 1 | Böyük Qafqaz qalxması | Maqmatik süxurlar üstünlük təşkil edir |
| 2 | Ön Qafqaz çökməsi | Neft ehtiyatlarına rast gəlinmir |
| 3 | Kiçik Qafqaz qalxması | Molibden və alunit yataqları mövcuddur |
| 4 | Kür çökməsi | Yalnız ovalıqlardan ibarətdir |
| 5 | Araz çökməsi | Araz çayının keçdiyi bütün ərazilər yerləşir |

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**6. Uyğunluğu müəyyən edin.**

1. Braziliya yaylası
2. Meksika yaylası
3. Orta Sibir yaylası

a. Heç vaxt kölgə uzunluğu sıfıra bərabər olmur.
b. Aid olduğu ölkə iki yarımkürədə yerləşir.
c. Yerləşdiyi materikdə Mezozoy qırışıqlığında yaranan relyef formalarına rast gəlinmir.
d. Qərbində cavan platforma yerləşir.
e. Yerləşdiyi ölkələrdə Günəş ilboyu günorta vaxtı zenitdə olur.

A) 1-a; 2-b, c; 3-d
B) 1-c; 2-b; 3-a, d
C) 1-b, e; 2-a; 3-c, d
D) 1-c, e; 2-b; 3-a, d
E) 1-e; 2-a, c; 3-b, d

**7. XX saat qurşağının orta meridianında yerli vaxtla saat 22:40 olarsa, 95° q.u-da yerləşən məntəqədə yerli vaxtla saat neçə olar?**

A) 23:40 B) 01:00 C) 13:00 D) 20:20 E) 12:20

**8. Cənub yarımkürəsində yerləşən limanları seçin.**

A) Riçards-Bey, Kure, Tampa
B) Dampir, Santus, Tubaran
C) Havr, Sietl, Valdiz
D) Santus, Xark, Sinqapur
E) Kobe, Port-Hedlend, Dampir

**9. İqlim diaqramının aid olduğu məntəqənin yerləşdiyi şəhəri müəyyən edin.**




A) London B) Roma C) Tokio D) Cakarta E) Manila

**10. Yerin öz oxu ətrafında hərəkəti zamanı coğrafi enliklər üzrə fırlanma sürəti fərqli olur. Buna nəzərən aşağıda verilmiş şəhərləri onların yerləşdikləri paralel çevrələrinin fırlanma sürətinin azalması istiqamətində sıralayın.**

1. Bakı 2. Helsinki 3. Manila

A) 3, 1, 2 B) 1, 2, 3 C) 2, 1, 3 D) 3, 2, 1 E) 1, 3, 2

**11. Riyazi-statistik məlumatlar əsasında tərtib olunmuş ..... xəritələrdə statistik göstəriciləri yüksək olan ərazilər təhrif olunmuş halda, daha qabarıq göstərilir. Nöqtələrin yerinə uyğun cavabı təyin edin.**

A) Anamorfoz B) Fiziki C) Kiçik miqyaslı D) Topoqrafik E) İcmal-topoqrafik

**12. Cədvələ əsasən doğru sıraları müəyyən edin.**

| S/S | Çaylar | Səciyyəvi əlamətlər |
|---|---|---|
| 1 | Ural | Transsərhəd çay hesab edilir |
| 2 | San - Fransisku | Sutoplayıcı hövzəsi iki işıqlanma qurşağında yerləşir |
| 3 | Müqəddəs Lavrenti | Subtropik iqlim qurşağında yerləşir |
| 4 | Maqdalena | Kənar dənizə tökülür |
| 5 | Makkenzi | Baffin dənizinə tökülür |
| 6 | Qanq | Mənsəbi Banqladeşdə yerləşir |

A) 2, 4, 5
B) 1, 3, 5
C) 1, 4, 6
D) 2, 3, 6
E) 3, 4, 6

**13. Müvafiq olaraq uyğunlaşdırın.**

| | |
|---|---|
| 1. Fiziki coğrafiyanın yeni sahəsi<br>2. İqtisadi coğrafiyanın ənənəvi sahəsi | a. kənd təsərrüfatı coğrafiyası<br>b. geomorfologiya<br>c. landşaftşünaslıq və landşaft planlaşdırılması<br>d. tibbi coğrafiya<br>e. sosial coğrafiya |

A) 1-b, c; 2-a, e B) 1-b,c; 2-a, d, e

C) 1-c; 2-a, e D) 1-b; 2-a, d

E) 1-c; 2-d,e

**14. Şərq yarımkürəsində yerləşən ölkələri seçin.**

1. Almaniya 2. Efiopiya 3. Avstraliya 4. Braziliya 5. Kanada 6. İslandiya

A) 2, 3, 4 B) 1, 2, 3 C) 4, 5, 6 D) 1, 3, 5 E) 2, 3, 6

**15. Orta miqyaslı xəritələrə uyğun gələn miqyasları seçin.**

1. 1:5000000 2. 1:300000

3. 1:150000 4. 1:750000

5. 1:2500000 6. 1:600000

A) 1, 3, 5 B) 2, 4, 6 C) 2, 3, 5 D) 1, 2, 4 E) 2, 3, 4

**16. Xəritə-sxemdə hansı faydalı qazıntının daşınma istiqamətləri təsvir edilmişdir?**




A) Dəmir filizi
B) Kömür
C) Təbii qaz
D) Boksit
E) Manqan

**17. Doğru *olmayan* fikirləri müəyyən edin.**
1. Ən çox fiziki-coğrafi rayon Böyük Qafqaz təbii vilayətindədir.
2. Kür çökəkliyi təbii vilayəti üç ölkə ilə həmsərhəddir.
3. Kür çökəkliyi və Kiçik Qafqaz təbii vilayətində gil ehtiyatları mövcuddur.
4. Kür çökəkliyi təbii vilayətində yalnız qışı mülayim keçən yarımsəhra quru çöl iqlim tipinə rast gəlinir.
5. Lənkəran təbii vilayətində maqmatik süxurlara rast gəlinir.
6. Orta Araz təbii vilayətində iqtisadi əhəmiyyətli dəmir filizi yataqları mövcuddur.

A) 2, 3, 5 B) 1, 4, 6 C) 1, 3, 6 D) 2, 4, 5 E) 1, 2, 3

**18. Subekvatorial iqlim qurşağında yaranan təbii zonanı müəyyən edin.**

A) Enliyarpaq meşələr

B) Codyarpaqlı meşə və kolluqlar

C) Savanna və seyrək meşələr

D) Tayqa

E) Çöllər

**19. Cədvələ əsasən doğru bəndi müəyyən edin.**

| S/S | Ölkə | İnzibati-ərazi quruluşu | İdarəetmə forması |
|---|---|---|---|
| 1 | Braziliya | federativ | respublika |
| 2 | İndoneziya | federativ | respublika |
| 3 | Qazaxıstan | unitar | respublika |
| 4 | KXDR | unitar | monarxiya |
| 5 | Küveyt | unitar | mütləq monarxiya |
| 6 | Vyetnam | unitar | respublika |

A) 3, 4, 6 B) 2, 3, 5 C) 2, 4, 5 D) 1, 4, 5 E) 1, 3, 6

**20. Ölkəmizin ərazisində mövcud olan tranzit (transsərhəd) çayları seçin.**

1. Tərtərçay 2. Arpaçay 3. Qanıx 4. Ağstafaçay 5. Qusarçay 6. Girdimançay

A) 1, 2, 3 B) 4, 5, 6 C) 1, 3, 5 D) 2, 3, 4 E) 2, 5, 6

**21. Müəllim şagirdlərə Naxçıvan iqtisadi rayonunda olan çayların adını xəritədən tapmağı və tapdıqları iki çay arasındakı məsafəni hesablamağı tapşırdı. Şagirdlər tapşırığı icra edən zaman müvafiq olaraq hansı təhlil üsullarından istifadə edəcək?**

A) Kartometrik, vizual

B) Qrafik, kartometrik

C) Vizual, kartometrik

D) Tədqiqat, riyazi-statistik

E) Vizual, riyazi-statistik

**22. A ölkəsinin əhalisinin ümumi sayı 40 milyon nəfər, adambaşına düşən ÜDM-nin həcmi isə, 30 min ABŞ dollarıdır. Bu ölkədə ÜDM-nin 30%-i xarici şirkətlərə məxsusdursa, ÜDM-də milli şirkətlərin payını tapın.**

A) 1,8 trilyon dollar
B) 1,2 trilyon dollar
C) 360 milyard dollar
D) 840 milyard dollar
E) 660 milyard dollar

**23. Quba-Xaçmaz iqtisadi rayonuna aid *olmayan* inzibati rayon:**

A) Şabran B) Siyəzən C) Xızı D) Qusar E) Xaçmaz

**24. Doğru fikirləri müəyyən edin.**

1. Avstraliyada yalnız ətlik və ətlik-südlük istiqamətli heyvandarlıq inkişaf etmişdir.
2. Dəniz mühitində müxtəlif heyvanların yetişdirilməsi marikultur adlanır.
3. Çəltik əkinləri həm quraq, həm də rütubətli isti iqlimə malik ərazilərdə ola bilər.
4. "Yaşıl inqilab"ın baş verməsi İEÖ-lərin təsərrüfat strukturunda kənd təsərrüfatının payının kəskin artmasına səbəb olmuşdur.
5. Broyler quşçuluq kompleksi əsasən istehlakçılara yaxın yerləşdirilir.
6. Rusiyada həm şəkər qamışı, həm də şəkər çuğunduru becərilir.

A) 2, 4, 6 B) 1, 4, 6 C) 2, 3, 5 D) 1, 2, 3 E) 1, 3, 5

**25. “Böyük yeddilik” qrupuna aid olan ölkələr.**

1. Fransa 2. Avstraliya 3. Rusiya Federasiyası 4. Kanada 5. Yaponiya 6. Çin

A) 1, 2, 3 B) 1, 4, 5 C) 4, 5, 6 D) 2, 4, 6 E) 1, 3, 4

**26. H məntəqəsində atmosfer təzyiqi 670 mm c.s.-dur. F və H məntəqələri arasındakı temperatur fərqi 7,2°C təşkil etdiyini nəzərə alaraq, F məntəqəsinin mütləq hündürlüyünü müəyyən edin.**




A) 1500 m B) 2100 m C) 2700 m D) 3200 m E ) 1300 m

**27. Uyğunluğu müəyyən edin.**

1. Dağlıq Şirvan iqtisadi rayonu
2. Qazax-Tovuz iqtisadi rayonu
3. Mil-Muğan iqtisadi rayonu

a. Yalnız bir xarici ölkə ilə həmsərhəddir.
b. Filiz faydalı qazıntı yataqlarına malikdir.
c. Beş iqtisadi rayonla həmsərhəddir.
d. Beş inzibati rayondan ibarətdir.
e. Yayı quraq keçən mülayim-isti iqlim yarımtipinə rast gəlinir.

A) 1-b, e; 2-a, c; 3-d
B) 1-c, e; 2-a, b; 3-d
C) 1-a, d; 2-b, c; 3-e
D) 1-c ; 2-d, e; 3-a, b
E) 1-c, e; 2-b, d; 3-a

**28. V saat qurşağının orta meridianını təyin edin.**

A) 75° ş.u. B) 75° q.u. C) 82.5° ş.u. D) 82.5° q.u. E) 60° ş.u.

**29. Subtropik iqlim qurşağında yerləşən yarımadalar:**

A) Kamçatka, Malakka B) Skandinaviya, Hindistan C) Somali, Kaliforniya
D) Pireney, Apenin E) Arnemlend, Labrador

**30. Qütb gecələrinin müşahidə olunduğu materiklər:**

A) Antarktida, Şimali Amerika B) Avrasiya, Cənubi Amerika C) Afrika, Avrasiya
D) Avstraliya, Antarktida E) Cənubi Amerika, Şimali Amerika

**31. Ölkənin geosiyasi rolu:**

I - əsas amillər
II - digər amillər

a. ÜDM-un həcmi
b. Siyasi təsir dairəsi

c. Vətəndaşların sağlamlığı
d. Təbii resursların həcmi
e. Ölkədaxili sabitlik
f. Hərbi gücü

A) I-a, b, f; II-c, d, e
B) I-a, d, f; II-b, c, e
C) I-b, d, f; II-a, c, e
D) I-b, c, d; II-a, e, f
E) I-c, e, f; II-a, b, d

**32. Demarkasiya xətti nədir?**
A) Ölkənin iqtisadi və məhəlli suları arasında sərhəd xəttidir.
B) Yalnız İEÖ- lər arasında olan sərhəd xəttidir.
C) Qonşu ölkələr arasında mübahisələr həll olunana qədər razılaşdırılmış sərhəd xəttidir.
D) Şelf və materik yamacı arasında sərhəd xəttidir.
E) Təbii zonalar arasında sərhəd xəttidir.

**33. Cədvələ əsasən doğru sıraları müəyyən edin.**

| № | Qoruq və ya milli parklar | Xüsusiyyətləri |
|---|---|---|
| 1 | Qaragöl | Yarımsəhra landşaftı qorunur |
| 2 | Samur-Yalama | Düzənlik-meşə landşaftı mühafizə edilir |
| 3 | Ağgöl | Muğan düzündə yerləşir |
| 4 | Şirvan | Ceyranlar və su quşları qorunur |
| 5 | Korçay | Acınohur düzünün şimalında yerləşir |
| 6 | Bəsitçay | Yerləşdiyi inzibati rayon iki ölkə ilə həmsərhəddir |

A) 1, 2, 3   B) 1, 3, 6   C) 2, 4, 5   D) 2, 4, 6   E) 3, 5, 6

**34. İrlandiya adasının hansı istilik qurşaq və ya qurşaqlarında yerləşdiyini müəyyən edin.**
A) Daimi şaxta
B) İsti
C) Soyuq
D) Mülayim
E) Mülayim və soyuq

**35. ASEAN ölkələr qrupuna daxil *olmayan* ölkələri müəyyən edin.**

1. Çin   2. İndoneziya   3. Banqladeş
4. Laos   5. Kamboca   6. Koreya Respublikası

A) 1, 3, 6   B) 2, 4, 5   C) 1, 2, 3   D) 1, 2, 5   E) 4, 5, 6

**36. Cədvələ əsasən doğru sıraları müəyyən edin.**

| № | Xüsusiyyətlər | Fiziki-coğrafi rayonlar |
|---|---|---|
| 1 | Qışı quraq keçən mülayim isti iqlim yarımtipi yayılıb | Qanıx-Əyriçay |
| 2 | Yayı quraq keçən soyuq iqlim tipi yayılıb | Günnüt-Qapıcıq |
| 3 | Polimetal yataqları mövcuddur | Qonaqkənd |
| 4 | Tərtər çayının mənsəbi yerləşir | Arazboyu |
| 5 | Mis ehtiyatları mövcuddur | Gəncə |
| 6 | Paleozoy yaşlı süxurlara rast gəlinir | Həkəri |

A) 2, 4, 6   B) 1, 2, 5   C) 1, 3, 6   D) 2, 3, 5   E) 1, 4, 6

**37. Doğru sıraları müəyyən edin.**

| № | Atmosferin qatları | Aid olan xüsusiyyət |
|---|---|---|
| 1 | Troposfer | Atmosferin ən sıx təbəqəsidir. |
| 2 | Stratosfer | Topa buludların 90%-dən çoxu bu qatda yaranır |
| 3 | Mezosfer | Dolu bu qatda yaranır |
| 4 | Termosfer | Yüksək temperatur müşahidə edilir |
| 5 | Ekzosfer | Şeh bu qatda yaranır |

A) 3, 5  B) 2, 5  C) 1, 3  D) 2, 4  E) 1, 4

**38. "İvanpa Solar" elektrik stansiyası hansı tip stansiyadır?**

A) Su elektrik stansiyası
B) Atom elektrik stansiyası
C) Günəş elektrik stansiyası
D) Külək elektrik stansiyası
E) İstilik elektrik stansiyası

**39. Paleozoy yaşlı dağları müəyyən edin.**

1. And  2. Ural  3. Böyük Xinqan
4. Atlas  5. Kap  6. Skandinaviya
7. Krım  8. Pamir

A) 2, 3, 4, 7
B) 1, 4, 6, 8
C) 2, 3, 5, 6
D) 1, 2, 6, 8
E) 3, 4, 5, 7

**40. Xəritə-sxemdə rəqəmlərlə göstərilmiş ölkələrlə bağlı doğru fikirləri müəyyən edin.**




A) 2, 4, 6 – “Böyük yeddilik” qrupuna daxildir.
B) 3, 4, 5 – Federativ inzibati ərazi quruluşuna malikdir.
C) 1, 2, 6 – Zəngin neft ehtiyatlarına malikdir.
D) 2, 3, 5 – Şəkər qamışı və şəkər çuğundurunun geniş əkin sahələri mövcuddur.
E) 1, 2, 3 – Əhalisi German dil qrupuna mənsubdur.

**41. Eyler-Venn diaqramını tamamlayan bəndi müəyyən edin.**




1. Cavan dağlar mövcuddur.
2. Sahillərini üç okeanın suları yuyur.
3. Üç işıqlanma qurşağında yerləşir.
4. Mülayim dəniz iqlim tipinə rast gəlinir.
5. Yerləşdiyi litosfer tavası Afrika litosfer tavası ilə həmsərhəddir.
6. Qütb gecələri və qütb gündüzləri müşahidə edilir.

A) 2, 3, 6 B) 1, 4, 5 C) 4, 5, 6 D) 2, 3, 4 E) 1, 2, 6

**42. Cədvələ əsasən doğru sıraları müəyyən edin.**

| S/S | Faydalı qazıntıları ifadə edən simvollar | Faydalı qazıntı yataqlarının yerləşdiyi inzibati rayonlar |
|---|---|---|
| 1 |  | Qubadlı |
| 2 |  | Lerik |
| 3 |  | Daşkəsən |
| 4 |  | Laçın |
| 5 |  | Zəngilan |
| 6 |  | Balakən |

A) 1, 2, 6 B) 2, 4, 6 C) 1, 3, 5 D) 1, 2, 3 E) 3, 4, 5

**43. Rütubətlənmə əmsalının hansı göstəricisində süxurların fiziki aşınması intensiv olar?**

A) $R.ə = \frac{2000}{1500}$ B) $R.ə = \frac{600}{800}$ C) $R.ə = \frac{400}{600}$ D) $R.ə = \frac{300}{1200}$ E) $R.ə = \frac{350}{200}$

**44. Xəritə-sxemdə ştrixlənmiş ərazilərdə yayılan iqlim qurşaqları üçün doğru fikirləri müəyyən edin.**



1. Keçid iqlim qurşağıdır.
2. Yağıntılar mövsümü xarakter daşıyır.
3. Rütubətlənmə əmsalı vahiddən böyükdür.
4. İlboyu havanın qalxan hərəkəti müşahidə edilir.
5. Əkinçilik üçün əlverişli təbii şəraitə malikdir.
6. İlboyu eyni hava kütləsi hakim olur.

A) 1, 3, 6 B) 1, 2, 5 C) 2, 4, 6 D) 3, 4, 5 E) 1, 2, 6

**45. İqlim diaqramının aid olduğu məntəqənin yerləşdiyi inzibati rayonu müəyyən edin.**




A) Lənkəran B) Quba C) Zaqatala D) Ordubad E) Xaçmaz

**46. Yalnız bir xarici ölkə ilə həmsərhəd olan inzibati rayonlar:**
1. Quba 2. Şəki 3. Qazax
4. Ordubad 5. Daşkəsən 6. İmişli

A) 2, 5, 6 B) 1, 3, 5 C) 2, 4, 6 D) 2, 3, 4 E) 1, 2, 3

**47. Tükənən və bərpa olunan təbii ehtiyatları müəyyən edin.**

1. Hava 2. Dəmir filizi 3. Daş kömür
4. Torpaq 5. Geotermal enerji 6. Su

A) 1, 3, 5 B) 2, 3, 5 C) 2, 4, 6 D) 1, 4, 6 E) 2, 3, 4

**48. Verilmiş fikirlərə əsasən A ölkəsini müəyyən edin.**
- Üç yarımkürədə yerləşir.
- Həm tropik, həm də mülayim işıqlanma qurşağında yerləşir.
- Zəngin dəmir filizi və boksit ehtiyatlarına malikdir.
- Yerləşdiyi materikdə qütb ulduzu (Polaris ) görünür.

A) Hindistan B) Konqo C) Meksika D) İspaniya E) Braziliya

**49. A ölkəsinin 2020-ci il üçün tərtib edilmiş yaş-cins piramidasına əsasən doğru fikirləri müəyyən edin.**




1. Təbii artımın II tipi səciyyəvidir.
2. 10 il sonra əhalinin orta sıxlığı azalacaq.
3. Orta ömür müddəti çox yüksəkdir
4. İqtisadiyyatın IV sektorunun payı yüksəkdir.
5. Qərbi Avropada yerləşmir.
6. Koreya Respublikasına aid ola bilməz.

A) 4, 5, 6 B) 2, 3, 5 C) 1, 2, 3 D) 2, 4, 5 E) 1, 5, 6

**50. Anklav ölkələri müəyyən edin.**

1. Vatikan 2. Andorra 3. Lesoto
4. San-Marino 5. Küveyt 6. Lixtenşteyn

A) 1, 2, 5 B) 2, 3, 6 C) 1, 3, 4 D) 3, 4, 5 E) 2, 4, 6

**51. Aşağıdakı situasiyalardan hansında interaktiv təlim prinsipləri pozulmuş hesab olunur?**

A) Şagirdlər birgə müzakirə edərək problemə müxtəlif yanaşmalar irəli sürürlər
B) Müəllim şagirdlərin fikirlərinə əsaslanaraq dərsi planlaşdırır
C) Şagirdlər yalnız müəllimin təqdim etdiyi məlumatları qeydsiz şəkildə dinləyirlər
D) Təlim prosesində qrup işi və fikir mübadiləsinə geniş yer verilir
E) Müəllim öyrənməni təşviq edən suallar vasitəsilə təfəkkürü stimullaşdırır

**52.** *"Müəllim bölməni başa vurduqdan sonra bölmə üzrə summativ qiymətləndirmə keçirir. Qiymətləndirmə nəticələrinə əsasən sinfin yarıdan çoxu aşağı nəticə göstərir. Bu vəziyyət müəllimdə narahatlıq doğurur və o, dərhal növbəti bölməyə keçir".*

**Müəllimin bu qərarını necə qiymətləndirmək olar?**

A) Bu qərar doğrudur, çünki summativ qiymətləndirmə nəticələrindən sonra dərhal yeni mövzuya keçmək illik planlaşmaya uyğunluq baxımından vacibdir.
B) Nəticələr zəif olsa da, summativ qiymətləndirmə nəticələri yalnız rəsmi sənədləşdirmə üçün nəzərdə tutulduğuna görə müəllim qərarında haqlıdır.
C) Müəllimin qərarı yanlışdır, çünki summativ qiymətləndirmə nəticələri tədrisin keyfiyyətinə dair əhəmiyyətli məlumat təqdim edir və bu zəif nəticələr əlavə dəstək və korreksiya tədbirlərini tələb edir.
D) Müəllimin yanaşması düzgündür, çünki summativ qiymətləndirmə şagirdlərin keçmiş nailiyyətlərini ölçür, bu isə gələcək tədrisə təsir etməməlidir.

E) Müəllimin qərarı haqlıdır, çünki qiymətləndirmə nəticələri fənn kurikulumu ilə deyil, şagirdlərin fərdi xüsusiyyətləri ilə əlaqələndirilməlidir.

**53.** *"Şagirdlər qrup halında dünyanın müxtəlif iqlim qurşaqlarında yaşayan insanların həyat tərzini araşdırmalı, həmin iqlimdə yaşamaq üçün uyğunlaşdırılmış ekoloji yaşayış məskəni layihəsi hazırlamalıdırlar. Daha sonra bu yaşayış məskənini 3D modelləşdirmə aləti və ya interaktiv təqdimat vasitəsilə təqdim etməli və bu yaşayış formasının iqlim dəyişikliyinə qarşı dayanıqlılığını əsaslandırmalıdırlar".* **Müəllim sinifdə hansı inteqrasiyanı reallaşdırır?**
A) yalnız fənnüstü
B) fəndaxili, fənlərarası, fənnüstü
C) yalnız fənlərarası
D) fənnüstü, fənlərarası
E) fəndaxili, fənlərarası

**54.** *"İqlim dəyişikliklərinin kənd təsərrüfatına təsiri" mövzusunda verilmiş iki mütəxəssis fikrini oxuyun. Hər iki mütəxəssisin fikirlərini və onları dəstəkləyən arqumentləri ümumiləşdirin. Sizcə, hansı mütəxəssis daha əsaslı və inandırıcı arqumentlərdən istifadə edib? Mütəxəssislərin fikirlərində hansı coğrafi məlumatlara və sübutlara əsaslanılıb?"* **Tapşırıq şagirddə B.Blumun taksonomiyasının hansı mərhələsini, təfəkkürün hansı növünü inkişaf etdirməyə xidmət edir?**
A) anlamaq – məntiqi təfəkkür
B) tətbiq etmək – məntiqi təfəkkür
C) təhlil etmək – tənqidi təfəkkür
D) dəyərləndirmək – tənqidi təfəkkür
E) təhlil etmək – məntiqi təfəkkür

**55.** *"Şagird "Səhralaşma və torpaq deqradasiyası" mövzusunda qısa məlumat mətnini oxuyur. Mənbədə səhralaşmanın səbəbləri, təsirləri və qarşısının alınması yolları göstərilir. Mətnə əsaslanaraq səhralaşma probleminin əsas səbəblərini və vurduğu zərərləri müəyyən edin.*
*Mətnə əsasən, fikrinizin əsaslandırılması üçün ən azı iki arqument göstərin".* **Tapşırıq şagirddə B.Blumun taksonomiyasının hansı mərhələsini, təfəkkürün hansı növünü inkişaf etdirməyə xidmət edir?**
A) anlamaq – sistemli təfəkkür
B) tətbiq etmək – məntiqi təfəkkür
C) tətbiq etmək – abstrakt təfəkkür
D) dəyərləndirmək – tənqidi təfəkkür
E) təhlil etmək – analitik təfəkkür

**56.** *"Siz müəllim olaraq dərsdə fəal iştirak etməyən və sinif yoldaşları ilə ünsiyyətdən yayınan bir şagird müşahidə edirsiniz. Bu şagird son zamanlar tapşırıqları da yerinə yetirmir. Sakit və qapalı davranışları sinifdə diqqətdən yayınsa da, siz bu vəziyyətin davamlılığının onun inkişafına mənfi təsir edə biləcəyini düşünürsünüz".* **Bu vəziyyətdə necə davranmaq daha effektiv ola bilər?**

A) Şagirdə ciddi xəbərdarlıq edərək tapşırıqları yerinə yetirmədiyi üçün qiymətləndirməyə təsir edəcəyini bildirirsiniz.
B) Problemi məktəb rəhbərliyinə və psixoloqa yönəldirsiniz, çünki bu vəziyyət sizin səlahiyyətinizdən kənardır.
C) Digər şagirdlərə nümunə göstərərək onun passivliyinə diqqət çəkirsiniz və ona da fəallıq göstərməsini tövsiyə edirsiniz.
D) Şagirdin fərdi söhbət apararaq davranışlarının səbəblərini anlamağa çalışır, dəstəyə ehtiyacı olub-olmadığını müəyyənləşdirirsiniz.
E) Sinifdə iştirakını artırmaq üçün əlavə ev tapşırıqları verərək məsuliyyət hissini artırmağa çalışırsınız.

**57.** *"Müəllim "İqlim dəyişmələri və insan fəaliyyəti" mövzusunun tədrisi zamanı müşahidə edir ki, şagirdlər iqlim dəyişmələrinin səbəb və nəticəsini, həmçinin insan fəaliyyətinin bu prosesə təsirini bir-birindən ayırmaqda çətinlik çəkirlər. Mövzunun daha yaxşı mənimsənilməsi üçün müəllim dərs planında dəyişiklik edərək şagirdlərin fəal iştirakına əsaslanan yanaşma tətbiq etmək qərarına gəlir".* **Aşağıdakı yanaşmalardan hansını tətbiq etmək şagirdlərin inteqrativ yanaşmasını və mövzunun mahiyyətini öyrənməsini ən yaxşı şəkildə təmin edə bilər?**

A) Müəllim hər bir şagirdə iqlim dəyişməsinin bir səbəbini və bir nəticəsini tapşırır və onların bu iki anlayışı fərqləndirib sinif qarşısında təqdim etmələrini istəyir.
B) Müəllim şagirdlərə "iqlim siyasəti" və "ətraf mühitə təsir"lə bağlı real statistik məlumatlar təqdim edir. Şagirdlər bu məlumatlar arasında əlaqə qurmalı və təqdimat hazırlamalıdırlar.
C) Müəllim şagirdlərə iqlim dəyişməsi ilə bağlı bir sənədli film izlədib, sonra onlardan filmdəki faktları xronoloji ardıcıllıqla sadalamağı xahiş edir.
D) Müəllim dərslikdən parçanı oxuyur, sonra fərdi iş vərəqləri paylayaraq hər şagirddən qısa test cavabları yazmağı istəyir.
E) Müəllim fərqli regionlara dair hava şəraiti qrafiklərini verir və şagirdlərdən bu regionlarda iqlim dəyişməsinin olub-olmadığını qrafikə əsaslanaraq müəyyən etmələrini tələb edir.

**58. Aşağıdakı fikirlərdən hansılar pedaqoji baxımdan doğrudur?**

1. Müəllimin dərsə əvvəlcədən hazırladığı açıq suallar şagirdlərdə təlim zamanı yeni sualların yaranmasına səbəb olursa, bu dərsdə öyrənmə prosesi baş verir.
2. Bütün şagirdlərin eyni tapşırığı eyni vaxtda və eyni üsulla yerinə yetirməsi ədalətli və effektiv tədris üçün əsasdır.
3. Əgər şagirdin cavabı "düzgün" olmasa da, onun düşünmə prosesi müəllim tərəfindən nəzərə alınmalı və qiymətləndirilməlidir.
4. Yalnız test nəticələri ilə şagirdin idrak inkişafını və təfəkkür bacarığını müəyyən etmək mümkündür.
5. Müəllim dərsdə məntiqi səhvlərə imkan verirsə və bu səhvləri birlikdə müzakirə edirsə, şagirdlərdə daha dərindən öyrənmə baş verə bilər.

A) 1, 2, 3
B) 1, 3, 5
C) 2, 3, 4
D) 1, 4, 5
E) 2, 3, 5

**59. "***Məktəbdə keçiriləcək "Təbiəti qoruyaq" adlı təqdimat layihəsində siz komanda rəhbərisiniz. Komanda yoldaşınız təqdimatda daha çox emosional çağırışlara və musiqi effektlərinə yer verilməsini təklif edir. Siz isə təqdimatın faktlara, statistikaya və real nümunələrə əsaslanmasının daha inandırıcı olacağını düşünürsünüz. Komanda üzvünüz təklifində israrlıdır".* **Belə bir vəziyyətdə əməkdaşlıq və effektiv ünsiyyət bacarığını ən yüksək səviyyədə nümayiş etdirən davranış hansı olar?**

A) "Onun təklifini rədd edir və təqdimatı öz fikrimə uyğun hazırlayıram. Axı rəhbər mənəm."
B) "Müzakirə aparараq hər iki yanaşmanı birləşdirməyə çalışıram, təqdimatın müxtəlif hissələrində fərqli üslublardan istifadəni təklif edirəm."
C) "Onun fikri mənimkindən zəif olduğu üçün komandanın digər üzvlərini onun təklifinə qarşı çıxmağa təşviq edirəm."
D) "Onunla razılaşır və təqdimatı onun dediyi kimi hazırlayıram. Qalmaqal istəmirəm."
E) "Məsələni müəllimə çatdırıram ki, düzgün yolu o seçsin və məsuliyyət mənlik olmasın."

**60.** *“Siz 8-ci sinifdə "İqlim qurşaqları və onların təsiri" mövzusunu tədris edirsiniz. Dərs zamanı şagirdlərdən biri soruşur: "Müəllim, bəs niyə bəzi ölkələrdə eyni anda həm quraqlıq, həm də daşqınlar baş verir? Bu necə baş verir?" Siz bu sualdan istifadə edərək dərsi daha maraqlı və şagirdlərin düşünməsini təşviq edən şəkildə davam etdirirsiniz”.* **Aşağıdakı yanaşmalardan hansı sizin metodiki bacarıqlarınızı daha dolğun nümayiş etdirər?**

**1.** *Qlobal istiləşmə və ekstremal hava şəraiti haqqında qısa təqdimat hazırlayıb izah edərək sualı cavablandırmaq.*
**2.** *Şagirdləri qruplara bölüb fərqli iqlim zonalarına dair araşdırma etmələrini tapşırmaq və nəticədə hansı bölgələrdə belə hallar müşahidə olunduğunu təhlil etdirmək.*
**3.** *Şagirdlərə bu suala öz cavablarını yazılı şəkildə yazmalarını və ev tapşırığı kimi təqdim etmələrini demək.*
**4.** *Sualları dərhal özünüz cavablandırıb, dərsin planlaşdırılmış gedişinə davam etmək.*
**5.** *Şagirdlərə real baş vermiş iqlim hadisələri ilə bağlı xəbərləri (məsələn, Hindistanda sel və Afrikada quraqlıq) təqdim etmək və müzakirə apararaq onların səbəblərini birgə araşdırmaq.*

A) 2, 4, 5
B) 1, 3
C) 1, 2, 3
D) 1, 4
E) 2, 5

# Cavablar

| | | | |
|---|---|---|---|
| 1 | B | 31 | B |
| 2 | C | 32 | C |
| 3 | E | 33 | D |
| 4 | A | 34 | D |
| 5 | C | 35 | A |
| 6 | B | 36 | B |
| 7 | D | 37 | E |
| 8 | B | 38 | C |
| 9 | C | 39 | C |
| 10 | A | 40 | A |
| 11 | A | 41 | B |
| 12 | C | 42 | E |
| 13 | C | 43 | D |
| 14 | B | 44 | B |
| 15 | B | 45 | C |
| 16 | B | 46 | A |
| 17 | B | 47 | D |
| 18 | C | 48 | E |
| 19 | E | 49 | E |
| 20 | D | 50 | C |
| 21 | C | 51 | C |
| 22 | D | 52 | C |
| 23 | C | 53 | C |
| 24 | C | 54 | E |
| 25 | B | 55 | E |
| 26 | B | 56 | D |
| 27 | E | 57 | B |
| 28 | A | 58 | B |
| 29 | D | 59 | B |
| 30 | A | 60 | E |